# Ana

Vücudumda qanım sənlə birgə dövr eləyir,
Səni düşünmek məni yaxşılığa sövq eləyir,
O mələklər ki, Allah: Dünyada olun! Əmr eliyib...
O mələklər belə nurunla təbərrük eləyir.

Açılır sabahlar, günəş nurun vurur yerə,
Sənin nurun bəs eder kainata belə,
Al yanaqlım, gözel gözlüm, sesi incə,
Saldın məni gecə-gecə dərin fikirə...

Sus danışma, mən danışacam bu gün,
Sən əbədiyyən içimdə ses salan O'san,
Ömrümdə sənə minnətdar olduğum qədər...
Kimsəyə minnətdar olmayacağam...

Ana sözü ürəklərdə qoparır tufan,
Yoxdur açıqlaması, bilməz elm-irfan
Cümlədə son nida, canandan əziz can!
Bir gecə, göz yaşı! Bir ömür, bir an...

Bir dağ olsaydın uca zirvəli,
Mənim adım olardı uca zirvəsi,
Bir dəniz olsaydın həzin küləkli,
Yanında olardım dənizin səsi...
Bir bülbül olsaydın bağlı, qəfəsli,
İstəyərdim olum bir xoş nəğməsi

***Bakı, 2021***

***Eyyub QSSDİROV***



Kredo.- 2022.- 27 iyul.- S.2.